Hörmətli Ədalət müəllim !

Sizi, ali təhsil ocağının professor-müəllim heyətini, tələbələri və məzunlarını Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Bir əsr ərzində zəngin və şərəfli inkişaf yolu keçən bu ali təhsil ocağı, ölkəmizdə iqtisad elminin və iqtisadiyyatın inkişafında, bu sahədə əldə olunan nailiyyətlərdə müstəsna rol oynamışdır.

İqtisadiyyat sahəsi üzrə yüksək ixtisaslı milli kadr hazırlığı həyata keçirən İqtisad Universiteti beynəlxalq ali təhsil məkanında da layiqincə təmsil olunur. Böyük iftixar hissi ilə deyə bilərik ki, hazırda universitetin məzunları təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində uğurla fəaliyyət göstərir. Bu elm ocağı həm də, innovativ texnologiyaların tətbiqində ön sıralardadır. Məhz bu nailiyyətlərinə görə dünya universitetlərinin bir çox beynəlxalq reytinq siyahılarına daxil olmağı bacaran İqtisad Universiteti Azərbaycan ali təhsilinin beynəlxalq arenada nüfuzunun yüksəlməsinə mühüm töhfələr vermişdir.

Bu illər ərzində təhsil ocağının məzunlarının milli iqtisadiyyatımızın müxtəlif sektorlarında, dövlət idarəçiliyində və cəmiyyətin digər sahələrində uğurla çalışması, ölkəmizin iqtisadi qüdrətinin davamlı yüksəlməsində yaxından iştirakı qürurvericidir. Düşünürəm ki, bu gün hər kəs Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi, məzunu və müəllimi olması ilə fəxr edir.

Doğma universitetimin bütün professor-müəllim heyətinə böyük ehtiramımı çatdırıram. Tam əminliklə qeyd etmək istəyirəm ki, təhsil aldığım Azərbaycan Dövlət İqtisad Universiteti mənim üçün doğma elm və təhsil məbədidir.

Dərin hörmətlə,

Xaçmaz Rayon İcra Hakimiyyətnin başçısı Elnur Rzayev